Səh. 2 MƏSULİYYƏTSİZLƏ BOSTAN ƏKƏNİN TAĞI ÇİYNİNDƏ BİTƏR
Səh. 6 KORONAVİRUS NƏDİR?
Səh. 3 SÖZ SÖYLƏMƏK BİR SƏNƏTDİR
Səh. 6 STOMATOLOJİ KABİNETLƏRDƏ TƏHLÜKƏ – ÖLÜMCÜL İNFEKSİYALARA YOLUXA BİLƏRSİNİZ!
Səh. 4 BERİKA ŞUKAKİDZE: "PEDAQOQUN 1800 LARİ ƏMƏK HAQQI OLARSA VƏ BİZİM ETİMADIMIZI DOĞRULTMAZSA BU, SİSTEMİN ÇÖKMƏSİDİR"
Səh. 7 QARA ZANBAQLAR ÖLKƏSİNDƏ
Səh. 5 YAKOB QOQEBAŞVİLİNİN "ÇAR İRAKLİ VƏ İNQİLO QADIN" HEKAYƏSİ
Səh. 7 MARTIN 1-DƏN GÜRCÜSTAN VƏTƏNDAŞLARI ALMANİYADA İŞLƏYƏ BİLƏCƏKLƏR

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2020-Cİ İL
№003 (107)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QİQİ UQULAVA HƏBS EDİLİB



Tbilisinin keçmiş meri, müxalif Avropalı Gürüstan Partiyasının liderlərindən biri Qiqi Uqulava həbs edilib. Bu barədə Gürcüstanın Ali Məhkəməsi qərar qəbul edib. Sabiq mer 2009-2010-cu illərdə 48 milyon lari vəsaitin israf edilməsi ilə bağlı vəzifə səlahiyyətlərini aşmaqda günahkar bilinib.

Q.Uqulava özü Gürcüstan Daxili İşlər Nazirliyinə (DİN) gedib. O, DİN-nin binasına daxil olmazdan əvvəl tərəfdarları və ailə üzvləri ilə sağollaşıb, mübarizəni davam etdirəcəyini bildirib. Q.Uqulava məhkəmənin qərarını siyasi qərar adlandırıb.

Üç il iki ay müddətinə azadlıqdan məhrum edilən sabiq mer Matrosovlar adlandırılan həbsxanaya aparılıb.

Qeyd edək ki, Tbilisi Şəhər Məhkəməsi Q.Uqulavanı 2015-ci ilin sentyabrında vəzifə səlahiyyətlərindən sui-istifadəyə görə dörd il altı ay müddətinə azadlıqdan məhrum etmişdi. 2018-ci ilin fevralında məhkəmənin qərarı ilə müxalifətçi bir il üç ay müddətinə həbs edilib. Lakin o zaman Q.Uqulava digər cinayət işi üzrə 1 il 3 ay 22 gün həbs cəzası çəkdiyindən həbsxanaya göndərilməyib.

Gürcüstanın Baş Prokurorluğu keçmiş merlə bağlı cinayət işini seçki islahatları tələbi ilə müxalifətin keçirdiyi etiraz aksiyalarından sonra bərpa edib.

## NATO-NUN BAŞ KATİBİ: BİZ GÜRCÜSTANI DƏSTƏKLƏYİRİK



NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstanın birinci kanalına müsahibəsi zamanı deyib.

Y.Stoltenberq Gürcüstanın NATO-nun vacib tərəfdaşı olduğunu bildirib.

"Biz Gürcüstanı və ölkənin islahatlarla bağlı səylərini dəstəkləyirik. NATO-ya göstərdiyi dəstəyə görə Gürcüstana minnətdarıq", - baş katib bildirib.

"Qara dəniz bölgəsi NATO üçün strateji əhəmiyyət kəsb edir". Bunu

## İRAKLİ QARİBAŞVİLİ NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberqlə görüşüb.

Nazir deyib ki, Gürcüstan NATO-ya üzv olmaq məqsədinə nail olmaq üçün Alyansla əməkdaşlıq üçün bütün praktiki mexanizmləri uğurla istifadə edib.

Görüşdə NATO-Gürcüstan Tədbirlər Paketinin yenilənməsi, Gürcüstanın müdafiə qüvvələrində həyata keçirilən islahatlar və ölkənin Qara dəniz bölgəsində təhlükəsizliyin möhkəmləndirilməsindəki rolu müzakirə olunub.

Qeyd olunub ki, Gürcüstan NATO-ya inteqrasiyada uğurlu nümunədir və ölkə beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına böyük töhfələr verir.

## GİORGİ MARQVELAŞVİLİ SİYASƏTƏ QAYIDIR



Gürcüstanın sabiq prezidenti Giorgi Marqvelaşvili siyasətə qayıdır. Bu barədə o, özü mətbuata bildirib.

G.Marqvelaşvili deyib ki, Gürcüstan ciddi təhlükə qarşısındadır və ölkənin qərbmeylli kursunun dəyişməməsi üçün hər şey etməyə hazırdır.

"Biz Gürcüstanın demokratik və qərbyönümlü kursunu dəyişməyə imkan verməyəcəyik. Bu, ölkənin nə vaxtsa demokratik olacağı ümidi ilə yaşayanlar üçün əhəmiyyətlidir. Biz bu seçimi müdafiə etməyə çalışacağıq", - deyə sabiq prezident bildirib.

G.Marqvelaşvili siyasətə hansı formada qayıdacağını dəqiqləşdirməyib və bu məsələ ilə bağlı müxalifətlə məsləhətləşmələrə hazır olduğunu qeyd edib.



## MƏSULİYYƏTSİZLƏ BOSTAN ƏKƏNİN TAĞI ÇİYNİNDƏ BİTƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İstəyirəm bəy sözünün çoxdan bostana göndərildiyi bir vaxtda "Bəylə bostan əkənin tağı çiynində bitər" atalar sözünü dekanstruksiya edəm (Yəqin ki, buna görə atalar məni bağışlayar). Dekanstruksiya deyəndə ki, "bəy" sözünü "məsuliyyətsiz" sözü ilə əvəz edəm, məsələn belə: "Məsuliyyətsizlə bostan əkənin tağı çiynində bitər".

Bilirəm, məsuliyyətsizlərin əlindən boğaza yığılan məsuliyyətlilər cümləni oxuyub bitirməmiş "...tağı çiynində bitər" əvəzinə ürəkdən bir "lap" deyib, dalıyca da yeddi mərtəbəli söyüşlər yağdıracaqlar. Bu söyüş yağışı həm də bir növ özünə söz vermək, səhvi bir daha təkrarlamamaq üçün tövbə etmək olacaq – məsuliyyətsizlərdən kənar gəzib, gen dolanmaq üçün. Söyüş söyməsələr belə cümlənin "Məsuliyyətsizlə bostan əkənin..." hissəsi elə söyüş kimi səslənəcək.

Kimdir məsuliyyətsiz?

Məsuliyyətsiz üzərinə öhdəlik, cavabdehlik götürən, ancaq ayağını ayağının üstünə qoyub "ayım gəlsin, günüm keçsin" prinsipi ilə yaşayan, məsuliyyət hiss etməyən, cavabdehlik bilməyən müftəxordur, yalançıdır, ikiüzlüdür və s. Bu, üzərinə götürdüyü (!) məsuliyyətə görə əmək haqqı alanlara aiddir ki, mən də məhz onlardan danışmaq istəyirəm. Onların məsuliyyətsizliyi həm də vəzifələrindən sui istifadə etməkdir ki, bu da cinayət hasab olunur. Nə kimisə məsuliyyətə almaq fikrindəyəm, nə də kimisə məsuliyyətə cəlb etmək iqtidarında.

Sadəcə olaraq, bir anlıq təsəvvür edin ki, vəzifəsindən asılı olmayaraq hamı öz işinə, vəzifəsinə, öhdəliyinə, səlahiyyətinə və sairinə məsuliyyətsiz yanaşır. Məsələn, müəllim dərs keçmək əvəzinə sinifdə telefonla oynayıb vaxtını ötürür. Həkim xəstəni müayinə etməmiş hamıya eyni dərmanları yazır, hamıya eyni "sistem" asmaqla yola verir. Hakim meteorizmdən əziyyət çəkdiyinə görə işin tez-bazar bağlanması üçün səhv qərar qəbul edir. Məmur öz və qohumlarının xeyrinə görə əhalinin ziyanına olan qərarlar verir. Polis oğrunu azadlığa buraxıb, doğrunu həbs edir. Təcili yardım xidmətçisi baxdığı serial sona çatmamış çağırışa çıxmır. Yanğınsöndürənlər domino oynadıqlarına görə yanğınla bağlı telefon zənginə cavab vermirlər və sair və ilaxır. Uzatmaq da olar.

Bütün bu məsuliyyətsizliklərin nəticəsi isə fatal sonluqla bitir. Məsələn, müəllimi dərs keçməyən tələbə universitetə yalnız diplom almaq üçün siqaret çəkməyə gedir; dəqiq diaqnozu qoyulmamış xəstə səhv dərmanlardan daha da xəstələnir; hakimin səhv qərarı bir insanın, ailənin taleyi ilə oynayır; məmurun öz və qohumlarının xeyrinə qərarları rüşvətə, ədalətsizliyə, etirazlara aparıb çıxarır; təcili yardımın gec yetişməsinə görə xəstə ölür; "bir partiya" domino oyununa ev yanıb kül olur və sair və ilaxır.

Məsuliyyətsizlik patologiyadır. Məsuliyyətsizlik də alkoqolizm, narkomaniya, rüşvət və s. kimi cəmiyyət üçün zərərli bir azardır ki, buna qarşı da tədbirlər görülməli, inzibati cərimələr təyin edilməlidir. Məsuliyyətsiz insanlar ümumiyyətlə işlə təmin edilməməli, insanların taleyi məsuliyyətsizlərə etibar olunmamalıdır. Bu qədər...

## BAŞ NAZİR GİORGİ QAXARİA ABŞ-IN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜB



Baş nazir Giorgi Qaxaria 56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ABŞ-ın müdafiə naziri Mark Esperlə görüşüb. Görüşdə müdafiə sahəsində Gürcüstan-ABŞ əməkdaşlığının uğurla həyata keçirildiyi bildirilib.

Tərəflər Gürcüstanda aparılan islahatlarda ABŞ-ın dəstəyinin əhəmiyyəti, regionda mövcud problemlər fonunda ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə Gürcüstanın 2020-2030-cü illər üçün Müdafiə Qüvvələrinin inkişaf planı da müzakirə olunub.

G.Qaxaria Gürcüstanın təhlükəsizlik sahəsində ABŞ-ın dəstəyinin əhəmiyyətini vurğulayıb. Bu kontekstdə Qara dənizdə təhlükəsizlik və NATO ilə əməkdaşlıq məsələlərinə xüsusi diqqət ayrılıb. Tərəflər həmçinin hibrid təhlükələrə qarşı ABŞ-la əməkdaşlığın zəruriliyini də qeyd ediblər.

ABŞ tərəfi Gürcüstanın beynəlxalq sülhməramlı missiyalarındakı əhəmiyyətli töhfəsini yüksək qiymətləndirib.

Gürcüstan tərəfdən görüşdə xarici işlər naziri David Zalkaliani, müdafiə naziri İrakli Qaribaşvili və baş nazirin beynəlxalq münasibətlər üzrə müşaviri İrakli Çikovani də iştirak ediblər.

## TEMUR ABAZOV BƏRAƏT ALIB



Marneuli rayonunun sabiq icra başçısı Temur Abazov Rustavi Şəhər Məhkəməsinin qərarına əsasən bəraət alıb.

T.Abazovun vəkili Qaqi Mosiaşvili bildirib ki, müdafiə etdiyi şəxslə yanaşı, iş üzrə ittiham olunan digər üç nəfərə də bəraət verilib.

O qeyd edib ki, bəraət hökmündən sonra girov müttəhimlərə qaytarılacaq.

Xatırladaq ki, T.Abazov 2017-ci ildə yerli idarəetmə orqanlarına keçirilmiş seçkilərdə qalib gələrək Marneulinin icra başçısı seçilib. O, 2018-ci ilin iyunun 13-də Marneuli rayon sakini Elçin Allahverdiyevə qarşı qeyri-insani və alçaldıcı davranış faktı ilə bağlı saxlanılıb. 2018-ci il dekabrın 13-də T.Abazov 10 min lari məbləğində girov müqabilində azadlığa buraxılıb.

T.Abazov öz istəyi ilə vəzifəsindən istefa verib. Ötən ilin fevralın 14-də onun səlahiyyətlərinə xitam verilib. O, ötən ilin noyabrından Gürcüstanın Pauerliftinq Federasiyasının vitse-prezidenti vəzifəsində çalışır.

## GÜRCÜSTANDAN MAL-QARANIN İXRACINA MƏHDUDİYYƏT QOYULDU



Hökumətin qərarına əsasən, heyvandarlığın inkişafı və damazlıq cinslərin sayını artırmaq məqsədi ilə "Baytarlıq nəzarətinə tabe olan məhsulların ixracı zamanı istifadə olunacaq baytarlıq sertifikatlarının alınması və verilməsi qaydasının təsdiqlənməsi haqqında" 430 nömrəli sərəncama dəyişiklik daxil olub. Bu haqda Gürcüstanın Milli Qida Agentliyi məlumat yayıb.

Dəyişikliyə əsasən, ixrac olunacaq iribuynuzlu mal-qaranın çəkisi 140 kq-dan 200 kq-a qədər artırılıb. Məhdudiyyət erkək cins iribuynuzlu mal-qaranın ixracına aid deyil, buna görə də ixrac edən heyvanın cinsini təsdiqləyən sənəd təqdim etməlidir. Qeyd olunan sənədi isə Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı Elmi-Araşdırmalar Mərkəzi verir.

"Dəyişikliklər iribuynuzlu heyvanların sayının artırılmasına və damazlıq cinslərin yetişdirilməsinə, həmçinin əlavə gəlir yerlərinin və heyvandarlıq sektorunda iş yerlərinin yaradılmasına dəstək olacaq. Heyvandarlıq sahəsinin inkişafına həvəsləndirmək dövlət siyasətinin istiqamətlərindən biridir ki, beynəlxalq tərəfdaş olan təşkilatlar buna qoşulub.

ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin (USDA) maliyyə dəstəyi ilə "Zərərsiz və keyfiyyətli heyvandarlıqda investisiya" (SQIL) layihəsi həyata keçirilir. Layihəni Amerikanın "Land O'Lakes Venture37" təşkilatı Fermerlər Assosiasiyası və Miçiqan Dövlət Universiteti ilə tərəfdaşlıqla həyata keçirir. Beşillik layihənin məqsədi heyvandarlığın, konkret olaraq isə iribuynuzlu mal-qaranın süd və ət sektorunun inkişafına dəstək olmaqdır.

Eləcə də sahənin inkişafı üçün "Süd sahəsinin modernizasiyası və bazara çatdırılması proqramı" əhəmiyyətli dəstək göstərir. Proqramı Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD) həyata keçirir. Layihə südçülük sektorunun modernləşdirilməsini, südün dəyər zəncirində hər bir bəndin inkişafına dəstək olmaqdır", - deyə Agentlikdən bildiriblər.

Mənbə: bpn.ge

# AZƏRBAYCANIN İQTİSADİYYAT NAZİRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB



Gürcüstanda səfərdə olan Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi nümayəndə heyəti baş nazir Giorgi Qaxaria ilə görüşüb. Bu barədə Gürcüstan baş nazirinin Mətbuat xidməti məlumat yayıb.

Görüşün əsas müzakirə mövzuları Gürcüstan və Azərbaycan arasında iqtisadi əməkdaşlığın müsbət dinamikası, həmçinin iki ölkənin strateji tərəfdaşlığının əsas istiqamətləri olub.

Qeyd olunub ki, iki ölkə arasında qarşılıqlı ticarət və investisiyalar, həmçinin enerji dəhlizləri, logistika və nəqliyyat sahələrində əməkdaşlıq da sürətlə inkişaf edir.

Bununla yanaşı, tərəflər Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlığın önəmi və ikitərəfli məsələləri operativ həll etməyə imkan verən qarşılıqlı anlaşmanın yüksək səviyyəsini də vurğulayıblar.

Tərəflər qeyd ediblər ki, ölkələr arasında uğurlu iqtisadi əməkdaşlıq davam etdiriləcək. Belə ki, nəqliyyat, tranzit, logistika, kommunikasiya və energetika sahələrində yeni birgə layihələrin həyata keçirilməsi planlaşdırılıb.

Görüşdə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natia Turnava, "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru David Peradze də iştirak edib.

Mənbə: report.az

# TÜRKİYƏNİN MİLLİ POLİS HEYƏTİ GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ OLUB

Türkiyə Cümhuriyyətinin Milli Polis İdarəsinin Narkotiklərlə Mübarizə və Beynəlxalq Əlaqələr Departamentinin nümayəndələri Gürcüstanın Daxili İşlər Nazirliyində olub. Qonaqları Daxili işlər nazirinin müavini Vladimer Bortsvadze və Mərkəzi Kriminal Polis Departamentinin direktoru Mamuka Celidze qəbul edib.



Görüşdə tərəflər narkotikin qanunsuz dövriyyəsi sahəsində olan problemlərdən və qeyd olunan cinayətə qarşı birgə mübarizədə əməkdaşlığın əhəmiyyətindən danışıblar.

Gürcü polisləri türk həmkarlarını ölkəyə qanunsuz narkotikin gətirilməsi və yayılmasına qarşı əldə etdikləri nəticə ilə tanış ediblər və öz təcrübələrini bölüşüblər.

Görüş iştirakçıları gələcək əlaqələrin dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər və birgə tədbirlərin planlaşdırılmasına razılaşıblar.

Səfər çərçivəsində Türkiyə heyəti Gürcüstanın Daxili İşlər Nairliyinin Ekspertiza-Kriminalistika Departamentinin direktoru ilə də görüşüblər. Qonaqlar departamentin yeni binasını və laboratoriyalarını nəzərdən keçiriblər.

# TİKA TBİLİSİNİN YERALTI KEÇİDLƏRİNDƏ FİZİKİ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏR ÜÇÜN LİFTLƏR QURAŞDIRIB



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən fiziki məhdudiyyətli şəxslərin şəhərdə azad hərəkət etməsinə dəstək məqsədi ilə Tbilisidə üç yeraltı keçiddə altı xüsusi lift quraşdırılıb.

Tbilisi meriyasının məlumatına əsasən, yeni montaj edilmiş liftlərə paytaxt meri Kaxa Kaladze, onun müavini Maia Bitadze, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, TİKA-nın Tbilisi koordinatoru Necla Demirdağ, "Tbilservis Qrup"un direktoru Romeo Mikautadze və başqaları baxış keçirib.

K.Kaladze ictimaiyyəti fiziki məhdudiyyətli şəxslər üçün nəzərdə tutulmuş infrastrukturun qayğısına qalmağa çağırıb.

# SÖZ SÖYLƏMƏK BİR SƏNƏTDİR

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru



*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı.*
*Xətai*

Hər gözəl davranış kimi sözün gözəlini gözəl söyləmək də gözəl əxlaqın, daxildəki bir gözəlliyin əks olunmasıdır. Bu səbəbdəndir ki, sözün gözəli gözəlin sözüdür.

Belə bir hadisə nəql olunur:

Bir gün məmurlardan biri tutduğu bir günahkarı əlindən qaçırır və əsəbi halda qaçırdığı adamın dayısını çağıraraq: "Əgər bacının oğlunu gətirməsən onun yerinə sənin başını vurduraram" deyir.

Adam: "Möminlərin əmirindən (xəlifədən) məktub gətirsəm məni sərbəst buraxarsanmı?" deyə soruşur.

Məmur: "Bəli, buraxaram" deyir.

Bu zaman o şəxs bunları söyləyir: "Sənə Əziz və Rəhim olan Allahdan məktub gətirəcəyəm, Hz. İbrahim və Musanı şahid tutacağam. Allah-Təala buyurur ki: "Yoxsa, Musanın və əhdinə vəfa göstərən İbrahimin səhifələrində yazılı olanlar özünə xəbər verilmədimi? Həqiqətən heç bir günahkar, başqasının günah yükünü yüklənməz" (ən-Nəcm, 36-38).

Məmur: "Onu buraxın, həqiqətən qüvvətli bir dəlil gətirdi" deyir.

İnsan gördüyü səhvi əliylə və ya diliylə düzəltməyə cəhd göstərməlidir. Bunlara gücü çatmazsa, heç olmasa onun pis və səhv olduğunu düşünməli, uzaq durub özünü ona qapdırmamalıdır. Səhvləri düzəltməyən, doğruları ortaya qoyaraq qaranlıqlar içində bir şam yandırmayan insan bir müddət sonra özü də qaranlığa düçar olar. Başqalarının önünü işıqlandıranlar çıxa biləcək zərərlərdən xilas olarlar.

Bir kor qaranlıq bir gecədə əlində fənər və çiynində su səhəngi ilə gedirmiş. Boşboğazın biri yanına yaxınlaşır və: "Ey adam! Sənin üçün gecəylə gündüzün fərqi yoxdur. Sənin gözündə qaranlıqla işıq birdir. Elə isə fənərin sənə nə faydası olacaq ki?!" deyir.

Bu söz qarşısında mənalı bir şəkildə təbəssüm edən kor belə deyir: "Bu fənəri özüm üçün deyil, sənin kimi kor qəlbli axmaqlar üçün aldım ki, mənə toxunub su səhəngimi qırmasınlar."

Söz söyləmək bir sənətdir. Eyni mənanı ifadə edən bir çox dəyişik söz vardır, lakin hamısının da təsir gücü fərqlidir. Eyni mənanı iki fərqli adam ifadə edər, biri həmsöhbətini hirsləndirərkən digəri məmnun edər, biri uzaqlaşdırarkən digəri yaxınlaşdırar.

Kamal Paşazadə Səid Bəy Əhməd Mithat Əfəndi ilə birlikdə yolda gedərkən qarşılarına bir kor dilənçi çıxır. Səid Bəy yoldaşına dilənçinin boş çanağını göstərib: "Sizə gözəl sözün təsirini izah etmək üçün bir dördlük yazıb bu adamın sinəsinə asacağam" deyir və əlavə edir: "Nəticəni dönüşdə görərik."

Həqiqətən də bir az sonra döndüklərində dilənçinin çanağı pul ilə dolmuşdur.

Dördlük belə olur:

Halıma ətfi nəzər eyləyən ərbabı kərəm
Mərhəmətlə mənə beş parə rəva görməzmi?
Sədəqəylə məni dilşad edən əhli xeyri
Nəhayət mən görməsəm də Xuda görməzmi?

Həqiqətən də kərəm və xeyir əhli möhtacları araşdıraraq onlara mərhəmətlə kömək edərlər. Sədəqə, infaq və müxtəlif köməklərlə sevindirib xoşbəxt etdikləri kəslər bunu haqqıyla təqdir edə bilməsələr belə, Allah-Təala onların xeyirli əməllərini görər və mükafatını lütf edər.

## BERİKA ŞUKAKİDZE: "PEDAQOQUN 1800 LARİ ƏMƏK HAQQI OLARSA VƏ BİZİM ETİMADIMIZI DOĞRULTMAZSA, BU, SİSTEMİN ÇÖKMƏSİDİR"



"Pedaqoqun 1800 lari əmək haqqı olarsa və bizim etimadımızı doğrultmazsa, bu, müəllimin deyil, sistemin çökməsidir". Bunu Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzinin rəhbəri Berika Şukakidze "Milli Müəllim Məktəbi"nin məzunları ilə görüşü zamanı bildirib.

Onun sözlərinə görə, bir il yarıma müəllimin orta əmək haqqı 1800 lari olacaq. Müəllimlərin əmək haqqının artırılması daha çox məsuliyyət deməkdir. Təhsil sistemində aparılan dəyişikliklər məhz müəllimin lazımı bilik və bacarıqlarının olması üçündür.

B.Şukakidzenin açıqlamasına görə, müasirlik müəllim peşəsinə dəyişikliklərin daxil edilməsini tələb edir. Məsələn, əgər əvvəl müəllimlər şagirdlərə öz fənlərini yalnız "quru" tədris edirdilərsə, indi şagirdləri real həyata və məktəbdə öyrəndiklərindən həyatda istifadə etməyə hazırlamalıdırlar.

"Uşaqlar praktiki olaraq nələrisə etməyi öyrənməlidirlər. Fənlərin tədrisi yaxşıdır, amma çox hallarda yaxşı şagird belə məktəbi bitirdikdən sonra başqa reallığa düşür. Müəllimlər şagirdləri real həyat üçün hazırlamalıdırlar", - deyə B.Şukakidze bildirib.

O, qeyd edib ki, müəllimin "uşaq nə bilir, avtoritet mənəm" yanaşması səhvdir və "yeni məktəb modelinə" qoşulmuş uşaqlar məktəbə getməyə sevinirlər, çünki müasir metodlarla təhsil almaq olduqca maraqlıdır.

## XƏSTƏLİKLƏRƏ NƏZARƏT VƏ İCTİMAİ SAĞLAMLIQ MİLLİ MƏRKƏZİNİN RƏHBƏRİ VALİDEYNLƏRƏ TÖVSİYƏ EDİB



Qrip mövsümü və koronavirusun yayılması təhlükəsi ilə bağlı Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze validyenlərə tövsiyələr verib. A.Qamkrelidze bildirib ki, əgər uşağın istisi olarsa valideynlər onu məktəbə buraxmamalıdır.

Onun sözlərinə görə, məktəblər qrip mövsümünü nəzərə alaraq gigiyena normalarını maksimum dərəcədə qorumalıdırlar.

"Ölkədə respirativ infeksiyalar mövsümüdür və bütün məktəblər, uşaq bağçaları Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin verdiyi tövsiyələri nəzərə almalıdırlar – uşaqlar üçün təmiz mühitin yaradılması, əlləri tez-tez yumaq, məktəblərin tez-tez havalandırılması, tualetlərdə tez-tez təmizlik işlərinin aparılması, sabun və infeksiyalara qarşı vasitələrin olması. Əgər uşağın temperaturu varsa valideyn onu məktəbə buraxmamalıdır, həkimə aparmalıdır", - deyə Amiran Qamkrelidze bildirib.

## 2019-CU İLDƏ 5 545 ŞAGİRD DƏRSDƏN QAÇIB



2019-2020-ci tədris illərində (yanvar ayına qədər) 5 545 şagird, 2018-2019-cu illərdə isə 10 352 şagird dərsdən qaçıb.

Qeyd olunan statistika Mandatur Xidməti əməkdaşlarının olduğu məktəblərə aiddir. Xidmətin məlumatına görə, 2018-2019-cu tədris illərində şagirdlərin dərsi pozmaq, yaxud dərsi pozmağa cəhd göstərməsi ilə bağlı 5 896 hal, 2019-2020-ci tədris illərində (yanvar ayına qədər) isə 3 058 hal qeydə alınıb.

Statistikaya əsasən, Gürcüstanda cəmi 2 086 ictimai məktəb var və 530,1 min şagird təhsil alır. 2019-cu ilin göstəricilərinə əsasən, 558 ictiamai məktəbdə mandatur əməkdaşları çalışırlar və statistik göstəricilər də təxminən həmin sayda olan məktəblərdən götürülüb.

## TƏHSİLİN TANINMASI ÜÇÜN ƏRİZƏ VERMƏK ARTIQ ELEKTRON QAYDADA MÜMKÜN OLACAQ



Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin məlumatına görə, 2020-ci ilin 6 fevralından yeni portal (www.my.gov.ge) qüvvəyə minib. Portalın köməyi ilə ərizə vermək istəyənlərə Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz tərəfindən fiziki şəxslərə məxsus olan xidmətlərlə bağlı elektron formada, mərkəzə getmədən müraciət etmək imkanı verilir.

Elektron xidmət forması aşağıdakı xidmətlərə aiddir:

- Gürcüstanda təhsilə aid verilmiş sənədlərin həqiqiliyinin təsdiqlənməsi;
- Qaçqınların aldığı təhsilin tanınması;
- Ləğv edilmiş təhsil müəssisəsində alınan təhsilin tanınması;
- Lisenziyalaşdırılmış rejimdə alınmış təhsilin tanınması;
- Xaricdə alınmış təhsilin tanınması.

Portal evdən çıxmadan, yeni şəxsiyyət vəsiqəsinə və onu oxuyan qurğuya, eləcə də elektron imzaya malik olan Gürcüstan vətəndaşlarının dünyanın hər hansı nöqtəsindən mərkəzin xidmətlərindən yararlanmaqla bağlı elektron müraciət etmək və elektron formada cavab almaq imkanı yaradır.

Yeni şəxsiyyət vəsiqəsi, onu oxuyan qurğu və elektron imza haqqında əlavə məlumat almaq üçün Ədliyyə Evinin qaynar xəttinə (2 40 54 05) zəng vura bilərsiniz.

## GÜRCÜSTANDA 91 PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏSİ VAR

Bu günə olan məlumata görə, Gürcüstan miqyasında cəmi 91 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Təhsilin idarəsi üzrə məlumat sisteminin "etaloni.ge"yə verdiyi məlumatda qeyd olunub ki, onlardan 50-si özəl, 41-i isə dövlət müəssisəsidir.

Peşə təhsili müəssisələrinin çoxu – 42-si Tbilisidə yerləşir. Bölgələrə gəldikdə isə göstəricilər cədvəldəki kimidir:

| Bölgələr | Özəl müəssisə | Dövlət müəssisəsi | Cəmi |
|---|---|---|---|
| Acara | 8 | 4 | 12 |
| Quriya | | 1 | 1 |
| Tbilisi | 29 | 13 | 42 |
| İmereti | 4 | 6 | 10 |
| Kaxeti | 1 | 3 | 4 |
| Mtsxeta-Mtianeti | | 2 | 2 |
| Raca-Leçxumi və Kvemo Svaneti | | 1 | 1 |
| Sameqrelo, Zemo-Svaneti | 2 | 4 | 6 |
| Samtsxe-Cavaxeti | 1 | 2 | 3 |
| Kvemo Kartli | 3 | 1 | 4 |
| Şida Kartli | 2 | 4 | 6 |
| **Cəmi** | **50** | **41** | **91** |

Qeyd etmək lazımdır ki, peşə təhsili müəssisələrinin məşhurluğu daha da artır. Milli Statistika Xidmətinin məlumatına görə, 2016-cı ildə özəl və dövlət peşə təhsili müəssisələrindən məzunların sayı 9 943, 2018-ci ildə isə 11 995 nəfər olub.

Tələbələr tərəfindən tələbat olan məşhur sahələr isə bunlardır: aşpaz, məlumat texnologiyalarına dəstəkçi, mühasibat, veb-interface tərtibatçısı, kulinariya sənəti və uşaq bağçasında dayə.

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# "YENİ YOL" QƏZETİ YAKOB QOQEBAŞVİLİNİN "ÇAR İRAKLİ VƏ İNQİLO QADIN" HEKAYƏSİNİ İLK DƏFƏ MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ TƏQDİM EDİR





Çar İraklinin Car ləzgiləri ilə döyüşü olmuşdu və onları tam nəğlubiyyətə uğratdı. Qələbədən sonra geri qayıdan, əlli yaşında olan igid çar qəşəng bədöy atın belində əyləşmişdi, arxasınca uzun, gözəl şəkildə düzülmüş qoşun daban-dabana çarı müşaiyət edirdi. Yol Sainqiloya gedirdi. İrakli iki çəpər arasına daxil oldu ki, onun da o tərəf-bu tərəfində çox böyük üzümlüklər və meyvələri yetişmiş, qızarmış bağlar cərgələnmişdi.

Qəflətən çarın başına kimsə ovuc dolusu gavalı tökdü. Heyrətlənmiş çar öz bədöy atını ona tərəf sürdü, qoşun dayandı. O tərəf-bu tərəfə boylandılar və elə oradaca üzüm bağının hasarı yaxınlığında nəhəng gavalı ağacının başında çarın başına gavalı atan on iki-on üç yaşında olan inqilo qızı gördülər.

Çarı müşaiyət edənlər elə həmin an atlardan sürətlə yerə endilər, çəpərə dırmaşdılar və qızın üstünə qışqırdılar: "Ey axmaq, ey mənfur, sən nə etdin? Çar İraklinin başına gavalını tökməyi necə ərk etdin? Dərhal düş ağacdan və çarın qarşısında üzr istə, yoxsa qara günə düçar olarsan".

– Nə? Çar İrakli deyirsən? – Yuxarıdan heyrətlə çığırdı, – nə söyləyirsiniz? Bu əgər bizim şanlı çarımız İrakli olsaydı, məgər başına fars papağını örtərdimi? Yox, bu yalandır. Mən farsın başına gavalını tökdüm, bizim qaniçən düşmənin başına, bütün gürcülərin tanrı kimi sevdiyi çar İraklinin başına deyil, siz tamamilə nahaqdan məni hədələyirsiniz. Nə yerə düşəcəyəm, nə də üzr istəyəcəyəm, – deyib ağacın daha da yüksəkliyinə dırmandı.

Onun bu cavabını çar İrakli eşitdi, ürəkdən şaqqanaq çəkdi, gənclik çağlarında İranda olarkən başına örtdüyü fars papağını başından götürdü, özünün yaxşı baxılmış gürcü başını göstərdi və qıza səsləndi: "Afərin, qız, tamamilə doğrusan. Fars papağını məhz elə başıma örtməməli idim. Gürcü çarı zahiri görünüşünə görə də, geyiminə görə də gürcü olmalıdır. O gavalını atmaqla mənə əladan əla öyüd verdin. Bərəkallah sənin gürcü qadınlığına!"

Bu zaman İrakli əlini cibinə saldı, ovuc dolusu tetri çıxartdı, öz müşaiyətçilərinə verib, buyurdu: "Bunları nümunəvi gürcü qızcığazına hədiyyə olaraq verin".

Qız indi öz səhvini başa düşdü və çox narahat oldu, hədiyyədən uzaq durdu, qətiyyətlə rədd cavabını verdi, lakin müşaiyətçilər yumşaltmaq üçün ona dedilər: "Məgər ikinci dəfə də çarı incitmək istəyirsən? Çarın mərhəmətinə rədd cavabı verməyi kim eşidib? Öz səhvini düzəltmək və çar İrakliyə xoş gəlmək istəyirsənsə, bu pulu hədiyyə olaraq almalısan".

Bu zaman qız razılaşdı, yuxarıdan aşağıdakı budağa düşdü, yerə hoppandı, pulu götürdü və cibinə tökdü, sonra isə sapand daşı kimi gavalı ağacının başına atıldı. Yaxşıca göründü, budağın üstündə qamətini düzəltdi, sonra başını əyib çara təzim etdi və cingiltili səslə ucadan səsləndi: "Çar İrakliyə eşq olsun".

"Gürcü qadınına da eşq olsun!" – çar İrakli atayana səslə dilləndi, özünün bədöy atını tərpətdi və hələ yenə də başı açıq halda qoşunun irəlisi ilə getdi. Özünün igid çarı ilə, özlərinin mərdliyi ilə qürurlanan qoşun səf-səf onun arxasınca gedir və həm də gözəl gürcü mahnısını guruldadırdı. Gürcü qadını isə ucalan gavalı ağacının zirvəsində dururdu, gedən çardan və onun qoşunundan gözlərini çəkmirdi. Mahnı kəsilən kimi havada onun zəng kimi olan səsi eşidilirdi: "Çar İrakliyə eşq olsun!", "Gürcü qoşununa eşq olsun!" Gürcü qadını uzun müddət beləcə dayandı və əvvəllər heç yuxusuna da gəlməyən sevinc və istəyi hiss edirdi. Qadını arzu olunan çar və onunla söhbəti, onun atayana tərifi, çarın hədiyyəsi hədsiz dərəcədə sevindirirdi. Sevincdən xumarlanan qız yalnız uzaqlıqda olan duman çarı və onun qoşununu bürüyəndən sonra ağacdan düşdü.

Lakin qadın bu yerdən bir daha getmək istəmirdi. O çar İraklinin durduğu və onunla danışdığı yerə və bəzən də həmin gündən onun şüuruna o xoşbəxt anın, ən şirin hadisənin daxil olduğu, canlandığı gavalı ağacına sevgi ilə baxırdı.

Bir saat bundan əvvəl adi meyvə ağacı, indi bu kiçik qızın gözündə səmimi dosta, əziz bir xeyirxaha çevrildi, sanki daimi olaraq, əsrlər boyu xeyirxah bir varlığa çevrildi.

Nəhayət, qızcığaz ifrat sevincdən ayrıldı, öz ata-anası yadına düşdü və onları özünün əfsanəvi xoşbəxtliyi ilə sevindirmək üçün evə doğru şütüdü.

İllər ötdü. Bir inqilo kəndlinin öz salonunda toy qızışmışdı. Gəlin bizim tanış inqilo qız idi, yenicə həddi-buluğa çatmışdı və elə cazibədar idi ki, insan ondan gözünü çəkə bilməzdi.

Onun ağıllı və cazibədar üzündə ilkin bakirəlik sevgisinin şüası parlayırdı. Bu sevgini eyibsiz qadının ürəyində onun yanında duraraq yaraşıq verən ən yaxşı bir inqilo igidi alovlandırdı. Onun da üz-gözündə birincinin qüsursuz məhəbbətinin xoşbəxtliyi aydın şəkildə əks olunmuşdu. Eyibsiz qadının saf sevgisinə qüsursuz oğlanın saf məhəbbəti cavab verirdi. Bu bəylə gəlini birgə görənlərin hamısı belə düşünür və deyirdi: Bəy gəlinə yaraşır, gəlin də bəyə.

Toy şənliyi başlar başlamaz masabəyi amiranə avaz ilə ucadan dedi: "Sakit durub qulaq asın! Tanrı bizim qəhrəman çarımız İraklini var eləsin, ömrünü uzun eləsin. Ləzgilər, farslar, osmanlılar, cənub və şimal üzərində qələbəni əskik eləməsin!" "Onun ömrünü uzun eləsin, uzun eləsin!", – qonaqlar elə fərəhlə səslərini ucaldırdılar ki, insan tavanın uçacağından qorxurdu.

Elə bu zaman salonun qapıları taybatay açıldı, içəri qəşəng geyimdə yad bir igid daxil olub salam verdi: "Tanrı sizə kömək olsun və bəylə gəlini xoşbəxt etsin!", – dedi. Sonra sözünə davam etdi: "Nə gözəl bir vaxtda gəldim. Məni çar İrakli göndərib və mənə əmr etdi: "Bu hədiyyəni bir neçə il bundan əvvəl bir ovuc gavalını mənim fars papağıma rəva görən inqilo qadına verin". Və gəlinə bacaxlo qızıl ilə dolu iri kisəni verdi. Məndən cehiz də göndərdi və budur gətirirlər, – dedi. Bu zaman cehiz əşyaları ilə yüklənmiş bir neçə araba qapının ağzını kəsdirdi.

Elə bir şadyanalıq baş verdi ki, İraklinin tərifi və şan-şöhrəti, onun insanpərvərliyi barədə elə sözlər yağdırdılar ki, onu dillə demək, qələmlə yazmaq tamamilə mümkün deyildi. İraklinin şəninə söylənilən çoxlu şeirdən deyilməmiş biri də qalmadı ki, qonaqlar hədsiz heyranlıqla onları ifa etməyəydilər. Kişi də oxuyurdu, qadın da, balaca da, böyük də və çar İraklini mədh edirdilər. Gəlin daha çox cənnətin səfasını hiss edirdi. Onu pərəstiş olunası çarın diqqəti qədər cehiz sevindirmirdi.

Bu xəbər sürətlə bütün Sainqiloya yayıldı və bütün inqilo qadınlar, istərsə də kişilər çar tərəfindən cehizin göndərilməsini öz şəxsi mükafatı kimi hesab edir, bütün Sainqiloya hədiyyə edildiyini düşünürdülər. Və Gürcüstanın bu ucqar guşəsini çara olan hədsiz sədaqətlilik və hərarətli minnətdarlıq tamamilə bürümüşdü.

Bundan sonra daha iyirmi beş il ötdü. Krtsanisi çölündə Tiflisin ağzında dəhşətli müharibə gedirdi. Beş min gürcü vətəni qorumaq üçün yetmiş min nəfər farsa qarşı mübarizə aparırdı. Səksən yaşlı İrakli hələ yenə də gümrah, comərd idi, şir kimi mübarizə aparır və özünü fəda edirdi. Onun həyatı hər an təhlükədə idi. Gah onun yaxınlığında, gah yanında, gah onun önündə döyüşürdülər. Qeyd etmək lazımdır ki, özlərinin igidliklərinə, qəhrəmanlıqlarına, çara qarşı fədakarlıqlarına görə iki nəfər seçmə igid hamının diqqətini cəlb edirdi, hamı onlara diqqət kəsilmişdi. Çarın üzərinə gələn düşməni dəfələrlə dəf etmiş, öz sinələrini düşmənin çara tuşlanmış gülləsinə və qılıncına sipər çəkmişlər, bir neçə farsın gününü qara gətirmişdilər.

Bu gənc igidlər kimlər idi?

Onlar bizim tanış qadının oğlanları və İrakli tərəfindən xaç suyuna çəkilənlər idi.

Sainqiloda anaya tezliklə xəbər gəldi: Sənin oğulların böyük qəhrəmanlıqlar göstərdilər, öz kirvələri olan çarı dəfələrlə ölümdən xilas etdilər. Bir çox farsın gününü qara etdilər, çar və Gürcüstan uğrunda özlərini qurban verdilər.

"Tanrıya şükürlər, çox şükürlər olsun ki, mənə uşaqlarımın qəhrəmancasına ölümünü qismət etdi. Şan-şöhrətli vətənoğullarının ölümünü." – Ana elə səslə dedi ki, bu səsdə də böyük təsəlli ilə yanaşı ən dərin, ən acı ana kədəri aydınca eşidilirdi. "Nahaqdan elə uşaqlıq vaxtlarından onlara çox nifrət etmirdim, harda görsəydim qeyri-ixtiyari üstünə atılmağa hazır idim. Qəlbim elə anda mənə deyirdi ki, bu zalımlar sənə və sənin Gürcüstanına da böyük bədbəxtliklər gətirəcəklər və budur, irəlicədən qəlbimin hiss etdikləri tamamilə doğru çıxdı".

"Lakin düşmənlər sevinməsin", – nümunəvi ana sözünə davam etdi – Tanrının sayəsində, mənim yenə dörd oğlum və iki qızım vardır. Mən onları daha yaxşı, qəlbi hərarətlə dolu vətənoğlu kimi böyütdüm və onlar başqa gürcü analarının böyütdüyü vətənoğulları ilə birlikdə düşməndən qisas alacaqlar və bizim Gürcüstanı xoşbəxt yola çıxaracaqlar.



## STOMATOLOJİ KABİNETLƏRDƏ TƏHLÜKƏ – ÖLÜMCÜL İNFEKSİYALARA YOLUXA BİLƏRSİNİZ!

İsə Xəmmədov
khamedovisa0@gmail.com

Dövrümüzün ən aktual problemlərindən biri stomatoloji kabinetlərdən infeksiyaların yayılmasıdır. Diş həkiminə müraciət etdiyimiz zaman ehtiyatlı olmağımız çox vacibdir, əks halda adi bir diş ağrısı bizə xəstəlik hədiyyə edə bilər. Diş həkiminə müraciət etdiyimiz zaman sadəcə onun peşəkarlığına deyil, həm də həmin klinikanın sanitariya-gigiyena və sterilizasiya (xüsusi aparat vasitəsi ilə alətlərin infeksiyadan təmizlənmə prosesi) vəziyyətinə diqqət etməmiz lazımdır.

Tibbin bütün sahələrində, xüsusən də stomatologiyada sterilizasiya – tibbi alətlərin təmizliyi çox önəmlidir. Müasir zamanın tələblərinə görə, həkim-stomatoloqun kabinetindəki bütün avadanlıqlar xüsusi məhlulla təmizlənməli (pasiyentin əyləşdiyi kresloya qədər), həkim müalicə zamanı hər xəstə üçün birdəfəlik tibbi vasitələrdən (əlcək, şpris, ağız yaxalamaq üçün stəkan, müayinə güzgüsü, stomatoloji aparatın ucluqları kimi) istifadə etməlidir. Bundan başqa, hər stomatoloji kabinetdə avtoklav (infeksiyalardan alətləri təmizləyən aparat) adlı xüsusi sterilizasiya aparatları qoyulmalıdır ki, burada da bir çox alətlər hər pasiyentə xidmətdən dərhal sonra 100% mikroblardan təmizlənməlidir.

Təəssüf ki, bu gün bir qisim stomatoloji kabinetlərdəki vəziyyət acınacaqlıdır. Stomatoloqların peşəkarlığı bir kənara, orada sterilizasiya tələblərinə düzgün əməl olunmur. Nəticədə insanlar məxfi şəkildə müxtəlif xəstəliklərə yoluxurlar. Bunlar arasında qanla keçən hepatitlər (Hepatit B, Hebatit C), QİÇS kimi qorxulu xəstəliklər yer alır.

### BƏS DİŞLƏRİMİZİ HARA VƏ KİMƏ ETİBAR EDƏK?

Dişi ağrıyan kəs tez ondan qurtulmağa çalışır. Onu bu halında həkimin kabineti, oradakı vəziyyət belə maraqlandırmır. Amma, yox, bura qədər yazılanlar əbəs deyildir. Bütün hallarda diş həkiminin yanına gedəndə kabinetin vəziyyətinə nəzər salmadan keçməyin. Ən əvvəl həkimin əllərinin təmizliyi dəqiqləşdirilməlidir. Sonra stomatoloji güzgü, əlcək, şpris, iri tibbi avadanlıqların ucluqları birdəfəlik olmalı, müalicə və ya diş çəkilməsində lazım olan kəlbətin, skalpel, elevator və digər alətlərin təmizliyinə riayət olunmalıdır. Bu alətlər avtoklavlarda, quru hava sterilizatorda təmizlənir, yeni pasiyent üçün təhlükəsiz istifadə olunur. Paketləmə qurğusunun olub-olmadığına nəzarət edilməlidir. Vətəndaşlar ağız boşluğunda adi prosedurlar, dişlərin ağardılması və digər proseslərin hamısında həmin bu alətlərin paketlənmə qurğusundan çıxmasının şahidi olmalıdırlar. Yəni həmin alətlər steril paketlərdən çıxarılaraq istifadə edilməlidir. Görürsünüz ki, stomatoloq həmin alətlərin yığıldığı qabdan bir aləti seçib çıxarır, istifadə edir, buna qətiyyən yol verməк olmaz. Belə hal olarsa, bu o deməkdir ki, bu alətlər sterilizasiya edilməyib. Sözsüz ki, vətəndaşların həmin yerdən çıxıb getmələri məsləhətdir. Çünki həmin yerdə nəinki virus ola bilər, həm də bakterioloji yoluxmalara məruz qala bilərlər.

### DİŞİM DÜZƏLDİ, ƏVƏZİNƏ XƏSTƏLİK TAPDIM...

Tez-tez "diş həkimləri daha çox xəstəlik yayırlar" iddiası səslənir. Bu fikir əbəs yerə deyil. Həm xəstə, həm də sağlam insanı müalicə edən həkimin işi qəlizdir. Müalicə obyekti isə ağızda yerləşdiyindən hər an həkimin natəmiz əli ilə belə istənilən xəstəliyə yoluxa bilərik. Xəstəliklər arasında xüsusən virus hepatitlərinin adı hallanır.

Sağlamlığınızı qoruyun, çünki sağlamlıq bizə verilən bir nemətdir.

# KORONAVİRUS NƏDİR?

Son günlərdə dünya səhiyyəsinin gündəmindən düşməyən koronaviruslar ilk dəfə 1960-cı illərdə aşkar edilmişdir. Virusun 37 növü var, bir çox növləri çox yüngül xəstəliklər törədir və dünyada kəskin respirator virusların 4-9 faizini təşkil edir.

2002-ci ildən etibarən görünməyə başlayan yeni koronavirus növləri qripə bənzər, tənəffüs yolları infeksiyası ilə özünü göstərməyə başlamışdır. Bunlardan birincisi SARS-CoV (Severe Acute Respiratory Syndrome Coronavirus – Şiddətli Kəskin Tənəffüs Çatışmazlığı Sindromu) koronavirus infeksiyasıdır. 2003-cü ilin fevral ayında Çinin Quanqdonq bölgəsindəki yarasalardan palma pişiklərinə və oradan da insanlara ötürüldüyü düşünülən virus 8 ayda çoxu Çində olmaqla 5 qitədən 33 ölkədəki 8000 insanı öz təsiri altına almış və təxminən 800 adam bu virusdan həyatını itirmişdir. 2004-cü ildən sonra SARS ilə əlaqəli yeni bir qeyd nəzərə alınmamışdır.



Digər bir yeni koronavirus infeksiyası MERS-CoV (Middle East Respiratory Syndrome Coronavirus – Orta Şərq Respirator Sindromu Koronavirusu) infeksiyasıdır. İlk dəfə 2012-ci ildə Səudiyyə Ərəbistanında qeydə alınmışdır. Dəvədən insana ötürülən və 2018-ci ilin iyun ayına qədər davam edən bu fərqli MERS-CoV epidemiyası 5 qitədə və 27 fərqli ölkədə 2229 hal aşkar edilmiş və 791 insan həyatını itirmişdir. SARS-CoV-da ölüm nisbəti MERS-CoV-da 35%-ə çatmışdır. Hər iki infeksiyanın inkubasiya müddəti 3-5 günə qədər ola bilər və bu müddət 10-14 günə qədər uzana bilər. Bu o deməkdir ki, simptomlar görünməmişdən 10-14 günədək virusu başqalarına ötürə bilərsiniz. İnkubasiya dövründən sonra xəstəlik yüksək temperatur, boğaz ağrısı, quru öskürək, tənəffüs çatışmazlığı, əzələ və oynaq ağrısı, baş ağrısı ilə irəliləyir. Virus əsasən aşağı tənəffüs yollarına ziyan vurduğu üçün sətəlcəm daha çox müşahidə olunur və bu, xüsusilə risk qrupu hesab olunan yaşlı xəstələrdə və ya əsas xroniki ürək, ağciyər və böyrək xəstəlikləri olan xəstələrdə həyati təhlükəyə çevrilir. Xəstəliyin sağalma müddəti 7-10 gün çəkə bilər.

31 dekabr 2019-cu ildə Çinin Hubey əyalətində 11 milyon əhalisi olan Uhan şəhərində baş verən hadisədə əvvəllər görünməmiş yeni bir koronavirusuna yoluxma aşkar edildi. 2019-nCoV adlanan bu virus SARS-CoV və MERS-CoV kimi bir zoonotik (heyvanlardan insanlara ötürülən) infeksiyadır. Hazırda isə xəstəlik insandan insana da ötürülür. 30 yanvar 2020-ci ildə, əsasən Hubey əyalətində, xüsusən Uhan və Çindən kənarda 19 ölkədə yoluxma hallarının sayı 8000-ə çatıb, bütün Çində isə 170 ölüm hadisəsi qeydə alınıb. Həyatını itirən xəstələr müayinə edildikdə, əksəriyyətinin yaşlı xəstələr və ya xroniki ürək, ağciyər və böyrək, parkinson və diabet diaqnozu qoyulan xəstələr olduğu aşkar edilib.

Uhan şəhərində başlayan bu infeksiyanın dəniz məhsulları və müxtəlif yabanı heyvan ət məhsulları satıldığı bazardan yoluxduğu düşünülür. İndi xəstəliyin insandan insana ötürüldüyü sübut edilmişdir. İnfeksiya indiyə qədər əsasən xəstə ilə eyni ailədə və ya mühitdə və tədbir görməyən tibb işçilərində aşkar edilib.

Tənəffüs, həzm və ifrazat sistemlərinə təsir edən virusa xüsusilə payız və qış aylarında rast gəlinir. Ümumiyyətlə, insanlarda soyuqdəymə, sətəlcəm və s. kimi yüngül və orta dərəcədə aşağı, yuxarı tənəffüs yolları infeksiyalarına səbəb olur. Koronavirusa əslində bir çox hallarda rast gəlinir, lakin bu virus mutasiyaya məruz qalmadıqca təhlükəsi demək olar ki, yoxdur. Koronavirus 2-10%-ə qədəri ölümcül bir mutasiyaya məruz qalır, lakin klinik araşdırmalar nəticəsində bu mutasiyanın necə baş verdiyi barədə qəti məlumat yoxdur. Koronavirusuna heyvanlarda tez-tez rast gəlinir. Digər tərəfdən, heyvanlar koronaviruslarının yaratdığı xəstəliyi öz orqanizmlərində asanlıqla aradan qaldıra bilər. Virus nadir hallarda heyvanlardan insanlara ötürülür. Yuxarı tənəffüs yollarının infeksiya xəstəliklərində olduğu kimi, insanlar arasında yoluxma öskürək və asqırmaqla havaya damcı şəklində səpələnmiş viruslarla baş verir. Bundan əlavə, virus daşıyan materiallara toxunduqdan sonra ağız və burun ilə təmas yolu ilə də ötürülə bilər.

Koronavirus yuxarı tənəffüs yolları infeksiyalarına aid yoluxma əlamətlərini göstərir: quru öskürək, burun axması, soyuqdəymə, halsızlıq, yorğunluq, yüksək temperatur, baş və boğaz ağrısı, iştahsızlıq. Bundan əlavə, xəstəlik ürəkbulanması, qusma, diareya və qarın ağrısı kimi simptomları da göstərə bilər. İnkubasiya müddəti 3-5 gün olan bu növ koronavirus infeksiyalarında xəstəlik 4-6 gün ərzində özünü məhdudlaşdırır və xəstələr sürətlə sağalırlar. Çox az hallarda və xüsusilə risk qrupunda sətəlcəm yarana bilər.

Xəstəliyin qarşısını almaq üçün immun sisteminin zəifləməsinə imkan verilməməlidir. Bunun üçün düzgün qidalanma və sağlam bir həyat tərzi çox vacibdir. Mütəmadi yuxu, əllərin tez-tez yuyulması, öskürmə və asqırma hallarında dəsmalların istifadəsi, ictimai yerlərdə istifadə olunan materiallar ilə təmasda olduqdan sonra ağız, burun və gözlərə toxunmamaq, qapalı və havasız ərazilərdən mümkün qədər uzaq durmaq və bu zaman maskalardan istifadə etmək həm koronavirusun, həm də digər tənəffüs yolları viruslarının ötürülməməsində təsirli olur.

Koronavirus xəstəliyi üçün dərman müalicəsi yoxdur və antibiotiklər sözügedən virusa qarşı təsirsizdir. Xəstəlik ağırdırsa və virusdan başqa bir əlavə xəstəlik varsa, xəstə xəstəxanaya yerləşdirilməlidir.

*Aytac HƏSƏNOVA*
*Həkim-kardioloq (Ordinator)*

# QARA ZANBAQLAR ÖLKƏSİNDƏ

**Snelmanın dövrü tarix oldu.**
**Bizim tarix nə zaman yazılacaq bəs?**

Hava tutqun və soyuq idi. Avtobusun gəlməsinə hələ 26 dəqiqə var idi. Üşüdüyümdən dayanacağın yanındakı çiçək mağazasına girdim. Şəffaf şüşəli qapını açıb içəri daxil olanda çiçəklərin bir-birinə qarışmış ətri üzümə vurdu. Rəngarəng güllərin içində fərqlənən, ən öndə duran bəyaz zanbaqlar dəydi gözümə.

Bəyaz zanbaqları görəndə, müəllifi Qriqoriy Petrov olan, bir çox dillərə tərcümə edilmiş, həmçinin Mustafa Kamal Atatürkün göstərişi ilə Türkiyədə məktəblərdə tədris proqramına daxil olunmuş "Bəyaz zanbaqlar ölkəsində"adlı kitab yadıma düşdü. Müəllif 19-cu yüzilin başlanğıcınadək İsveçin tərkibində asılı və inkişaf etməmiş durumda olan, xalqın mədəniyyəti bəsit oxuma-yazmadan o yana keçməyən Finlandiya haqqında bəhs edir.

Müəllif yazır ki, ölkənin fundamentinə böyük diqqət yetirmək və onu həmişə sağlam saxlamaq, yeniləmək lazımdır, əks halda dövlət həyati gücünü itirir və bataqlığa doğru gedir.

Müəllif onu da əlavə edir ki, ölkənin sağlamlığı başçılardan, ölkəni idarə edənlərdən və vətəndaşlarının iradə və çalışmaqlarından asılıdır. Kitabda bunun nümünəsi də məhz elə Finlandiya xalqı göstərilir. Onların çöküşə doğru getdikləri zaman, xalq iradəylə necə sağlam təməl-sistem və həyat tərzi qurur.

Kitabın baş qəhrəmanı ideoloq, jurnalist və dövlət xadimi Vilhelm Snelmandır, hansı ki, xalqı ilə görüşərək, fərqli səlahiyyətləri olan vətəndaşlarıyla danışaraq onları xalqına xidmət etməyə və xalqın maarifləndirilməsinə çağırır. Snelmanı analiz etdikcə ona oxşamaq həvəsi məni bürüdü və bir anlıq Snelman ola biləcəyimə inandım... çılğın gənclik və xəyalpərəstlik.



Snelman xalqının din xadimlərinə üz tutub deyirdi ki, millətimizə sevgini din şəklində yayın, sevgiyə və bir-birlərini Allaha xatir sevməyə, mehriban, mülayim olmağa çağırın bu xalqı. Kitabın bu hissəsini oxuyanda din xadimlərimiz gözlərim önündən keçdi... əli kitab, qələm tutmayan, həyat dərsi verən mollalar, haqqı təbliğ edib də haqqa səs verməyən dindarlar gördüm.

Snelman məmurlara üz tutub xahiş edir ki, bu xalqı, cəmiyyəti inkişaf etdirin. Vətəndaşlara layiqli həyat mühiti qurun, cavanlara potensiallarını inkişaf etdirməyə imkan yaradın. Gənclərə xüsusi diqqət yetirin, onlar gələcəyin özüdür. Bu xalqa doğma olun. Bu cəmiyyət üçün asan, əlinizdən gələn qədər xoş, rahat həyat qurun. Bu xalq sizə güvənir, illərdir haqları tapdalanan bu xalqa layiqincə xidmət edin. Və ilk öncə özünüz ədalətli və nizamlı olun, deyə xahiş edir.

Mən isə fikirlərimi yenə bizim xalqa yönəltdim. Xalqımın məmurlarına üz tutmaq istəyəndə, vətəndaşını təhqir edən icra başçısı, məmurluğunu yalnız dostlarına lobbiçilik etməkdə görən, özünə, uşağına hər rahatlığı quran, xalqının isə susuz olmağına vecsiz yanaşan, haqqı tələb etməyən çinovniklərimizi gördüm. Onları müşahidə etdikcə Mirzə Ələkbər Sabirin şeiri yadıma düşür:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın,
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Snelman müəllimlərə müraciət edir: "Bizim bu gün gələcəyi qura biləcək yeganə sərvətimiz məktəblərimizdir. Övladlarımızın gələcəyi sizin əlinizdədir. Bu xalqın uşaqlarına bilik verin, elm öyrədin, həyatı başa salın". Öz müəllimlərimizi gözümün önünə gətirmək istəyəndə onları süfrənin başında görmədim. Ziyalılarımıza söz verilmədi və məclislərdə ən əziz qonaqlar onlar olmadılar.

Son ümidlə xalqımı bir, bütöv təsəvvür etmək istədiyimdə, onları cılız siyasi partiyalara və fərqli qruplara parçalanmış gördüm. Yorğun gözlərlə baxan böyükləri, ümidsiz təbəssüm edən gəncləri gördüm.

Magazada ağ zanbaqlara baxıb, hanı mənim xalqımın "bəyaz zanbaqları" deyə düşündüyüm an, satıcı zanbaqları əlinə alıb onları qara sellofana bükdü...

Şənhəyat SADİQ
*İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Tibb fakültəsinin tələbəsi*

# MARTIN 1-DƏN GÜRCÜSTAN VƏTƏNDAŞLARI ALMANİYADA İŞLƏYƏ BİLƏCƏKLƏR

Martin 1-dən Gürcüstan vətəndaşları Almaniyada qanuni olaraq işləyə biləcəklər. Almaniyanın Tbilisidəki səfirliyinin məlumatına görə, kvalifikasiyalı heyət artıq prosedurlara başlaya bilər.




Məlumatda bildirilir ki, Almaniyada işləmək üçün viza lazım olacaq və bunun üçün Almaniyanın Tbilisidəki səfirliyinə, yaxud Baş Konsulluğa müraciət edilməlidir. Müvəqqəti yaşayış icazəsi almaq üçün (6 ay) Almaniyanın Federal Əmək Agentliyinin razılığı lazımdır. Bu razılığı əldə etmək üçün isə bir neçə şərt var, məsələn, iş müqaviləsi, həmçinin ali təhsili, yaxud iki illik peşə təhsilini təsdiq edən sənəd olmalıdır. Almaniya qanunvericiliyinə görə, peşə təhsilinin müddəti ən azı iki il olmalıdır.

**"Əgər ali təhsilinizi təsdiq edən diplomunuz varsa və reqlamentə uyğun peşə üzrə işləmək istəmirsinizsə, o zaman diplomunuzun göstəricilərinin Anabin (Xarici təhsil sənədlərinin tanınması və qiymətləndirilməsi mərkəzi – RED.) məlumat bazasına verilməsi yetərlidir."** - Almaniya səfirliyinin yaydığı məlumatda deyilir.

Həmçinin məktəb və ya peşə təhsili almaq üçün də Almaniyaya səfər etmək mümkündür. Peşə təhsili üçün hazırlıq dili kursları keçmək imkanı da var. Peşə təhsili kurslarında iştirak etmək üçün B1 səviyyədə alman dilini təsdiq etmək lazımdır, ancaq əgər hazırlıq kurslarında dil biliyi almaq planlaşdırılıbsa, yaxud bu bilik təhsil müəssisəsi tərəfindən təsdiqlənibsə buna ehtiyac yoxdur. Təhsillə yanaşı həftədə ən azı 10 saat işləməyə icazə də verilir.

Əgər Almaniya səfiriliyinə Almaniyada hələ iş tapmadığınızı və iş axtarmaq üçün səfər etmək istədiyinizi bildirsəniz, bu halda da həftədə 10 saat işləmək hüququnuz olacaq. Bu dövrdə sizə sınaq müddətində işləmək hüququ veriləcək.

**"Köməkçi və usta yanında şagird olaraq çalışmaq istisnadır" – Almaniya səfirliyi tərəfindən yayımlanan məlumatda qeyd olunub.**

Əgər Almaniyada artıq iş tapmısınızsa və kvalifikasiyanız da təsdiqlənibsə, səfirliyə və ya konsulluğa mart ayından tezləşdirilmiş viza tələbi ilə müraciət edə bilərsiniz. Bu, vizanı üç həftəyə ala biləcəyinizi nəzərdə tutur. Vizanın qiyməti isə 75 avrodur.

***Mənbə: diaspora.ge***

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2020-Cİ İL
№003 (107)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BU İLİN YANVARINA QƏDƏR OLAN GÖSTƏRİCİLƏRƏ GÖRƏ, GÜRCÜSTANDA 48 YENİ QİÇS İNFEKSİYASI HALI QEYDƏ ALINIB




2020-ci ilin 31 yanvarına qədər olan göstəricilərə görə, Gürcüstanda 48 yeni QİÇS-ə (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) yoluxma halı qeydə alınıb. Gürcüstanın İnfeksiya patologiyaları, QİÇS və Kliniki İmmunologiya üzrə Elmi-Praktiki Mərkəzinin məlumatına əsasən, ötən ilin eyni dövründə QİÇS-ə 41 yoluxma halı qeydə alınıb.

Mərkəzin məlumatına görə, Gürcüstanda cəmi 8 150 QİÇS-li xəstə var, onlardan 6 081 nəfəri kişi, 2 069 nəfəri isə qadındır.

Xəstələrin əksəriyyəti 29-39 yaş qrupuna daxil olan şəxslərdir. QİÇS 4 271 xəstədə inkişaf edib, 1 645 nəfər isə dünyasını dəyişib.

QİÇS-ə yoluxma səbəblərinin qeydə alınmış faiz göstəriciləri aşağıdakı kimidir:
38.0% (3093 nəfər) – infeksiyalı narkotik istifadəçisidir;
48.4% (3942 nəfər) – heteroseksual əlaqələr zamanı infeksiyaya yoluxub;
11.2% (914 nəfər) – homoseksual əlaqələr zamanı infeksiyaya yoluxub;
1.3% (110 nəfər) – şaquli ötürmə yolu ilə (anadan uşağa) infeksiyaya yoluxub;
0.5% (38 nəfər) – qan köçürmə zamanı yoluxub;
0.7% (53 nəfər) – yoluxma səbəbi müəyyən edilməyib.

QİÇS-ə yoluxanların çoxu Tbilisidə (3 007 hal, onlardan 87-si xarici vətəndaşdır, 2-si müəyyən edilməyib) qeydiyyat olunub; Sameqreloda 1 132 hal, İmeretidə 982 hal, Acarada 918 hal, Abxaziyada 525 hal, Kaxetidə 402 hal, Kvemo Kartlidə 468 hal, Şida Kartlidə 302 hal, Quriyada 174 hal, Samtsxe-Cavaxetidə 109 hal qeydə alınıb.

Qeyd edək ki, Gürcüstanda QİÇS-ə ilk yoluxma halı 1989-cu ildə qeydə alınıb. Ölkədə QİÇS-dən test müayinəsi və vətəndaşların müalicəsi ödənişsiz həyata keçirilir.

*Mənbə: ipn.ge*

## 2019-CU İLDƏ ŞƏKƏR İDXALI 13,6% AZALIB

2019-cu ildə şəkər idxalı 13,6% azalıb və idxal edilmiş 128 616 ton şəkərin dəyəri 50.3 milyon dollar təşkil edib.

Statistika Xidmətinin məlumatına əsasən, 2017-ci ildən şəkərin idxalı azalma tendensiyası ilə xarakterizə olunur (2017-ci il – 67.6 milyon dollar; 2018-ci il – 58.2 milyon dollar; 2019-cu il – 50.3 milyon dollar).

2017-2018-ci illərdə əsas idxal ölkəsi Braziliya olub. 2018-ci ildə Braziliyadan 21.3 milyon dollar dəyərində şəkər alınıb. 2019-cu ildə isə bu göstərici 76,2% azalıb.

**2019-cu ildə Gürcüstanın şəkər aldığı 10 ölkə:**

1. Polşa – 15.2 milyon dollar, 40 800 ton (2018-ci il - 19.9 milyon dollar, 52 370 ton);
2. Azərbaycan – 8.5 milyon dollar, 20 258 ton (2018-ci il - 107.2 min dollar, 135 ton);
3. Rusiya – 7.4 milyon dollar, 19 056 ton (2018-ci il - 83.8 min dollar, 49.8 ton);
4. Fransa – 5.4 milyon dollar, 13 064 ton (2018-ci il - 5.5 milyon dollar, 13 514 ton);
5. Braziliya – 5.0 milyon dollar, 14 067 ton (2018-ci il - 21.3 milyon dollar, 69 400 ton);
6. Ukrayna – 4.3 milyon dollar, 10 648 ton (2018-ci il - 4.5 milyon dollar, 11 040 ton);
7. Belçika – 2.4 milyon dollar, 5 977 ton (2018-ci il - 2.8 milyon dollar, 7 320 ton);
8. Niderland – 1.3 milyon dollar, 3 312 ton (2018-ci il - 819.8 min dollar, 1 897 ton);
9. Belorusiya – 471.7 min dollar, 1 209 ton (2018-ci il - 11.6 min dollar, 19.5 ton);
10. Türkiyə – 71.2 min dollar, 119.5 ton (2018-ci il - 13.9 min dollar, 4.9 ton).

*Mənbə: bm.ge*

## ŞAİR ASLAN GORARXILININ YENİ KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Şair Aslan Gorarxılının "Kişniş qoxusu" adlı şeirlər kitabı Tbilisinin "Saqa" nəşriyyatında çap edilib. Aslan Gorarxılı Rusiya Federasiyasının Çelyabinsk şəhərində yaşayır.

"Kişniş qoxusu" müəllifin sayca doqquzuncu kitabıdır. Kitaba müəllifin şeirləri və "Qoltuq ağacı" poeması daxil edilmişdir. İnsana inam, haqqa bağlılıq, qürbət qayğıları, vətənə, ana torpağa məhəbbət, mənəvi gözəlliyə çağırış, qeyri-insani maraqlarla yaşayan əliəyrilərin sərt tənqidi bu kitabda toplanmış şeirlərin ana xəttini təşkil edir.

"Kişniş qoxusu" həm də Aslan Gorarxılının öz sadiq oxucularına 60 illik yubiley hesabatıdır.

Kitabın ədəbi məsləhətçisi Tapdıq Yolçu, redaktoru İbrahimxəlildir.

## KOMMERSİYA BANKLARI 220 MİLYON LARİDƏN ÇOX DƏYƏRİ OLAN ƏMLAKA SAHİBDİRLƏR




2019-cu ilin dördüncü rübünə olan göstəricilərə görə, Gürcüstanda qüvvədə olan kommersiya banklarının hesabında ümumi olaraq 220 049 010 lari dəyərində daşınmaz və daşınan əmlak var.

**Banklara gəldikdə isə göstəricilər aşağıdakı kimidir:**

•Sakartvelos Bankı (Gürcüstan Bankı) – 99 065 797 lari;
•TBC Bank – 78 384 425 lari;
•Cartu Bank – 14 339 254 lari;
•Basisbank – 13 825 651 lari;
•VTB Bank Georgia – 10 067 967 lari dəyərində əmlaka sahibdir.

**Digər kommersiya banklarının sahib olduğu əmlakın dəyəri isə belədir:**

Silk Road Bank – 423 245 lari; Credo Bank – 813 532 lari; Finka Bank Georgia – 225 548 lari; Halyk Bank Georgia – 477 491 lari; Terabank – 2 226 546 lari; Liberty Bank – 47 775 lari; Ziraat Bank Georgia – 82 225 lari; ProCredit Bank – 69 554 lari.

Qeyd etmək lazımdır ki, 2019-cu ilin dördüncü rübünə olan məlumata əsasən, İş Bank və Paşa Bankın sahib olduğu əmlak yoxdur.

2019-cu ilin dördüncü rübündə bazarda cəmi 15 kommersiya bankı fəaliyyətdə olub.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANDA DNT KODLARIN VAHİD MƏLUMAT BANKI YARADILACAQ

Gürcüstanda DNT kodların vahid məlumat bankının yaradılması nəzərdə tutulub. Bu, Gürcüstan hökumətinin parlamentin yaz sessiyasına təqdim etdiyi qanun layihəsində əksini tapıb.

Layihədə qeyd olunub ki, bankın yaradılmasında əsas məqsəd şəxsin identifikasiyası, cinayətin qarşısının alınması, üstünün açılması və ona qarşı effektiv mübarizədir.

DNT kodların vahid məlumat bankının yaradılmasında beynəlxalq standartlar və müasir yanaşmaların tətbiqi nəzərdə tutulub.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.